**Ədəbiyyat qəzeti**

**25 may 2024-cü il** **31**

# *Gəncəyə, şair dostum İnqilab İsaqın vəfatı münasibəti ilə məktub*

18 may 2024-cü il! Bu səhər acı bir xəbər aldım: ərdəmli şairimiz İnqilab İsaq vəfat etdi. Payız gəlməmiş şeirimizin budağından bir yaşıl yarpaq da qopub düşdü. Yenicə 70 yaşın qeyd eləmişdi, hələ azı 10 il də yaşaya bilərdi. Fəqət nə etməli, atalar deyib: "Sən saydığını say, gör Fələk nə sayır" zalım fələk biz sayanı saymır...

Mən əziz dostum İnqilabın yaradıcılığı barəsində "Gəncədən gəlirəm, yüküm şeyirdi" bir də "Region poeziyası" silsilə məqalələrimdə bir tənqidçi olaraq öz müsbət fikirlərimi yazmışam.

Biz ən azı ayda bir dəfə zəngləşib hal əhval tutar, əlahəzrət poeziyadan danışardıq. Həmişə xahiş edərdi: Özünə yaxşı bax. Amma o, özünə yaxşı baxa bilmədi, O məsələ bizim əlimizdə deyil.

***Nizaməddin SƏMSİZADƏ***